**Yalçın Rəfiyev: COP29 iqlim dəyişikliyi problemində praktiki həllər tapmağa imkan yaradır**

"COP29 iqlim dəyişmələri problemində praktiki həllər tapmağa imkan yaradır. Düşünürəm ki, COP29 bu istiqamətdə həlledici rol oynayacaq".

AZƏRTAC xəbər verir ki, bunu PRE-COP29 konfransı çərçivəsində COP28, COP29 və COP30 sədrliklərinin birgə təşkilatçılığı ilə keçirilən Troyka ölkələrinin "1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi" mövzusunda yan tədbirdə COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev deyib.

O qeyd edib ki, COP29-da əsas diqqət iqlim dəyişikliyi üçün mübarizə metodları tapmağa yönələcək: "Biz təcrübələrlə yanaşı, eyni zamanda, geniş tərəfdaşlıqlar qurub, mövcud tərəfdaşlıqları inkişaf etdirəcəyik. Dayanıqlı gələcək qurmaq, 1,5 planına sadiq qalmaq bizim əsas hədəfimizdir".

**AZƏRTAC**
**2024, 10 oktyabr**